Əməllər altı növ, insanlar isə dörd qismə bölünür. Bunları vacib edən iki amil var. Bəzi yaxşı əməllərin qarşılığı misli-mislinə olduğu halda, başqa yaxşı əməllərin qarşılığı on qat verilir, bəzilərinin isə qarşılığı isə yeddi yüz qatdır

Xureym bin Fətikdən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayet edilir: "Əməllər altı növ, insanlar isə dörd qismə bölünür. Bunları vacib edən iki amil var. Bəzi yaxşı əməllərin qarşılığı misli-mislinə olduğu halda, başqa yaxşı əməllərin qarşılığı on qat verilir, bəzilərinin isə qarşılığı isə yeddi yüz qatdır. Vacib olan səbəblər isə budur: Uca Allaha şərik qoşmadan ölən kimsə Cənnətə, şərik qoşaraq ölən kəs isə Cəhənnəmə girər. Bəzi yaxşılıqların qarşılığı misli-mislinə olan o şəxsdir ki, müəyyən yaxşılığı etməyi qəlbində niyyət edər, Uca Allah da bunu bilir və buna görə ona bir savab yazılar. Bir şəxs pis əməl edərsə onun da qarşılığı bir misildir. Kimsə bir yaxşılıq edərsə ona yaxşılığının qarşılığı on mislində verilər. Qul, Allahın yolunda sədəqə verərsə, əvəzində ona yeddi yüz savab yazılar. İnsanların dörd qismə bölünməsinə gəlincə, onlardan bəzisinə dünya həyatında rahatlıq axirət həyatında sıxıntı, bəzisinə isə dünyada sıxıntı, axirətdə rahatlıq verilər. İnsanlardan bəzilərinə həm dünya, həm də axirət həyatında sıxıntı verilər. Bəzilərinə isə həm dünyada, həm də axirət həyatında rahatlıq verilər"

[Həsən] [Əhməd rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) əməllərin altı, insanların isə dörd qism olduğunu bildirmişdir. Bu altı əməl bunlardır: Birinci: Uca Allaha şərik qoşmadan ölən kimsənin Cənnətə girməsi mütləqdir. İkinci: Kim Uca Allaha şərik qoşaraq ölərsə cəhənnəm ona vacib olar, o orada əbədi qalar və bunlar vacib iki amildir. Üçüncü: Gözəl niyyət qarşılığında əldə edilən savab. Kim bir yaxşı əməl etməyi ixlasla (səmimi qəlbdən) niyyət edərsə, Allah onun bu niyyətini bilər və o, bu əməli hər hansı bir səbəbdən etməyə müvəffəq olmazsa, həmin yaxşı niyyətinə görə ona tam bir savab yazılar. Dördüncü: Edilən pis əməl, kim pis bir əməl edərsə bunun qarşılığında ona bir günah yazılar. Bu iki əməl, artırılmadan misli-mislinə yazılar. Beşincisi: Bir yaxşılığa qarşılıq on yaxşılıq savabı verilər. Bu bir insanın yaxşı bir əməli niyyət edib və bu əməli etməyə müvəffəq olarsa, ona həmin əməlin qarşılığı olaraq on savab verilər. Altıncı: Bir yaxşılığa qarşılıq yeddi yüz savab verilər. Bir qul Allah rizası üçün sədəqə verərsə, bu əməlin qarşılığında ona yeddi yüz savab verilər. Bu, Allah Təbarakə Təalanın quluna olan lütfü və ikramındandır. İnsanların dörd qismə bölünməsinə gəlincə, bunlar: Birinci: Dünya həyatında ruzisi bol verilən, istədiyi hər şeyi əldə edən, nemət

verilən kəsdir. Ancaq Axirət həyatında ona sıxıntı verilər və gedəcəyi yer Cəhənnəmdir. Bu kəs dünyada zəngin olan kafirdir. İkinci: Dünya həyatında ruzisi az verilən kəsdir. Ancaq Axirət həyatında ona rahatlıq və bolluq verilər və gedəcəyi yer Cənnətdir. Bu kəs dünyada yoxsul olan mömindir. Üçüncü: Dünya və Axirət həyatında sıxıntı verilən kəsdir. Bu, dünyada yoxsul olan kafirdir. Dördüncü: Dünya və Axirət həyatında rahatlıq verilən kəsdir. Bu kimsə dünyada zəngin olan mömindir.

https://sunnah.global/hadeeth/az/show/65014

النجاة الخيرية
ALNAJAT CHARITY

لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee